# “Ən yaxşı yazı” müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi keçirilib







Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunda bu qurumla “Azərbaycan müəllimi” qəzeti redaksiyasının birgə təşkil etdiyi “Ən yaxşı yazı” müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Tədbirdə hər iki qurumun rəhbərləri, müsabiqənin qalibləri, təşkilat komitəsinin və münsiflər heyətinin üzvləri, qonaqlar və KİV nümayəndələri iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Bilik Fondunun icraçı direktoru Oktay Səmədov iştirakçıları salamlayıb və Fondla “Azərbaycan müəllimi” qəzetinin redaksiyası arasında bağlanmış müqaviləyə uyğun olaraq keçirilmiş müsabiqənin yekun tədbirinə toplaşdıqlarını bildirib.

Son günlər cəbhə bölgəsində erməni silahlı birləşmələrinin törətdiyi təxribata cavab olaraq ordumuzun həyata keçirdiyi əməliyyatlar nəticəsində şəhid olmuş əsgər və zabitlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Çıxışına davam edən Oktay Səmədov müsabiqənin gedişi və yekunları haqqında məlumat verib. Qeyd edib ki, 2016-cı il yanvarın 1-dən start verilən müsabiqədə yazıların qəbulu üçün elan olunmuş 35 gün müddətində (yanvarın 1-dən fevralın 5-dək) 121 yazı daxil olub. Hər iki qurum birgə təşkilat komitəsi və münsiflər heyəti formalaşdırıb. Münsiflər heyətinin tərkibini diqqətə çatdıran icraçı direktor buraya Azərbaycan Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevin, “Azərbaycan məktəbi” jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Nəcəf Nəcəfovun, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Faiq Şahbazlının, “Azərbaycan müəllimi” qəzetinin şöbə müdiri Yusif Əliyevin və Bilik Fondunun İnformasiya təminatı sektorunun müdiri, filologiya üzrə fəlsəfə doktoru Xatirə Hüseynovanın daxil edildiyini söyləyib. Bildirib ki, yazıların ilkin dəyərləndirilməsi üçün münsiflər heyəti ətrafında tanınmış, fəal fənn müəllimlərindən, Təhsil Problemləri İnstitutunun əməkdaşlarından ibarət işçi qrupu yaradılıb. Yazılarla tanışlıq zamanı onların 21-nin müsabiqənin şərtlərini məzmun və həcm baxımından ödəmədiyi məlum olub və həmin yazılar qiymətləndirilməyə buraxılmayıb. Şərtləri ödəyən 100 yazı isə 2 mərhələdə qiymətləndirilib. Birinci mərhələdə onları işçi qrupu bal hesabı ilə dəyərləndirib. Nəticədə 28 yazı ikinci mərhələyə vəsiqə qazanıb. Bu mərhələdə yazılar münsiflər heyətinin üzvləri tərəfindən qiymətləndirilib. Müsabiqənin yekunlarına görə 3 yazı I, 3 yazı II, 5 yazı III, 17 yazı isə həvəsləndirici yerə layiq görülüb. Qaliblərin adları açıqlandıqdan sonra onların siyahısı “Azərbaycan müəllimi” qəzetində dərc olunub.

Müsabiqədə ölkənin 31 şəhər və rayonundan təhsil işçilərinin iştirak etdiyini diqqətə çatdıran O.Səmədov ali məktəblər istisna olmaqla təhsilin bütün səviyyələrində çalışan müəllimlərin qatıldığı müsabiqədə ümumtəhsil məktəbləri müəllimlərinin üstünlük təşkil etdiyini və iştirakçılar arasında ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərin təmsilçilərinin olduğunu deyib.

Oktay Səmədov çıxışının sonunda “Azərbaycan müəllimi” qəzeti ilə birgə keçirdikləri müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirərək bu kimi layihələrin davamlı olacağına əminliyini ifadə edib. Əgər müsabiqə qaliblərinin istəyi olarsa Bilik Fondunun təşkilatçılığı ilə onların metodik yazılarında əks olunmuş innovasiya elementlərindən istifadə etməklə keçdikləri dərsləri əks etdirən xüsusi sənədli filmlər hazırlanması təklifini irəli sürüb, bu filmlər əsasında Fondun arxivinin yarana və ondan hər kəsin bəhrələnə biləcəyini söyləyib. O.Səmədov yer tutmuş müəllimlərin bölgələrdə ustad dərslərinin təşkil edilməsini də məqsədəuyğun sayıb.

Sonra müsabiqənin digər təşkilatçısı - “Azərbaycan müəllimi” qəzetinin baş redaktoru Bayram Hüseynzadə çıxış edib.

Müsabiqəni təhsilimizin inkişafında çox əhəmiyyətli bir tədbir kimi dəyərləndirən Bayram Hüseynzadə onun mütəmadi şəkildə davam etdirilməsinin zəruriliyini söyləyib. Bildirib ki, belə tribunalar qabaqcıl, yaradıcı müəllimlərin üzə çıxarılmasında, stimullaşdırılmasında mühüm rol oynayır. Çünki müəllimin yaxşı pedaqoq, innovativ düşüncə və fəaliyyət sahibi olmasını məhz belə tədbirlər zamanı müəyyənləşdirmək olur.

Müsabiqənin rəhbərlik etdiyi qəzeti yaxşı metodik yazılarla təmin etmək baxımından da faydalı olduğuna diqqət çəkən baş redaktor, redaksiyanın həmin müəllimləri daim nəzarətdə saxlayacağını, onlarla əməkdaşlıq ediləcəyini, təcrübələrinin qəzet vasitəsilə bölüşüləcəyini vurğulayıb. Qeyd edib ki, ölkənin ucqar kənd məktəblərində çalışan müəllimlər belə yazılara xüsusilə ehtiyac duyurlar.

Bayram Hüseynzadə müsabiqənin obyektiv keçirilməsi üçün bütün imkanlardan istifadə etdiklərini söyləyib. Diqqətə çatdırıb ki, yazıların yoxlanılıb qiymətləndirildiyi hər iki mərhələdə onların anonimliyi maksimum gözlənilib, işçi qrupuna və münsiflər heyətinin üzvlərinə xüsusi qaydada şifrələnmiş yazılar təqdim olunub, yazı müəllifinin kimliyi haqqında heç kimin məlumatı olmayıb.

B.Hüseynzadə çıxışının sonunda müsabiqənin təşkili və keçirilməsində əməyi olan hər kəsə, xüsusən də materialların dəyərləndirilməsində öz dəstəyini vermiş Təhsil Problemləri İnstitutunun rəhbərliyinə təşəkkürünü bildirib, qalibləri təbrik edib.

Professor Əjdər Ağayev çıxışında bu kimi tədbirlərin innovativ texnologiyalarla işləyən müəllimlərin üzə çıxarılmasında və təbliğində böyük əhəmiyyət daşıdığını, onun müəllimləri hərəkətə gətirmək, onlara özlərinə inam yaratmaq, yaxşı müəllimlərin təcrübəsinin görünməsi baxımından da faydalı olduğunu söyləyib. Müsabiqəyə təqdim olunmuş yazıların məzmun, işlənmə texnikası, müəllimin düşüncə və fəaliyyətindəki yeniliyi əks etdirmək baxımından onu tam qane etdiyini deyən professor buna şərait yaradan belə bir müsabiqə keçirdiklərinə görə Bilik Fondunun və “Azərbaycan müəllimi” qəzeti redaksiyasının rəhbərliyinə təşəkkür edib, qalib müəllimləri təbrik edərək onlara uğurlar arzulayıb.

Münsiflər heyətinin üzvü Nəcəf Nəcəfov müsabiqəyə təqdim olunmuş yazıların onu sevindirdiyini, bu yazılarda müəllimlərin öz yenilikçi təcrübələrini, fikir və düşüncələrini, innovativ pedaqoji axtarışlarının nəticələrini ustalıqla ortaya qoyduqlarını söyləyib, bu işin davamlı olmasını arzulayıb, müəllimləri onlar üçün yaradılan şəraitdən maksimum bəhrələnməyə çağırıb.

Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru Qulu Novruzov da çıxışında həyata keçirilən layihəni yüksək qiymətləndirib. Müsabiqənin davam etdiyi bir neçə ay ərzində Bilik Fondu və “Azərbaycan müəllimi” qəzeti redaksiyasının gərgin iş apardıqlarını, şəffaf seçim prosesi həyata keçirdiklərini bildirib.

Ölkəmizdə təhsilin yeni məzmunu və müasir texnologiyalar zəminində qurulub aparıldığı hazırkı dövrdə metodikanın xüsusi önəm kəsb etdiyinə diqqət çəkən Q.Novruzov müsabiqənin məhz müəllimlərin yeni metodikalara, yanaşmalara necə yiyələnməsini aşkara çıxarmaq baxımından da faydalı saydığını söyləyib, qalibləri təbrik edib və müsabiqə ilə yaxşı bir ənənənin əsasının qoyulacağına inandığını bildirib.

Çıxışına qalibləri təbrik etməklə başlayan Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov müsabiqənin ədəbi dilimizin yazılı qolunun inkişafına kömək göstərməsi, qabaqcıl, yaradıcı müəllimlərin ictimaiyyətə təqdim olunması və müəllim əməyinin stimullaşdırılması baxımından əhəmiyyətini xüsusi qeyd edib və belə layihələrin müntəzəm keçirilməsinin önəmini vurğulayıb.

Münsiflər heyətinin üzvü Faiq Şahbazlı da çıxışında müsabiqəni müsbət addım kimi qiymətləndirib. Təxminən 10 il öncə müəllimlərin əlində lazımi qədər resurslar olmadığını deyən F.Şahbazlı son 10 ildə müəllimlər tərəfindən çoxlu resurslar hazırlandığını və bunun sevindirici hal olduğunu bildirib, müəllimlərdə olan öyrənmək həvəsini yüksək dəyərləndirib. F.Şahbazlı ilk dəfə keçirilən müsabiqədə 120-dən çox müəllimin iştirakını layihə təşkilatçılarının uğuru kimi qiymətləndirib, onları və qalibləri təbrik edib.

Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev çıxışında müsabiqənin təşkili ideyasını müəllimlərlə aparılan təbliğat, maarifləndirmə işinin yeni formatı kimi dəyərləndirib. Onu ədalətlə, tam şəffaf təşkil etdiklərinə görə hər iki təşkilatçı qurumun rəhbərliyinə təşəkkür edib.

Təqdimat mərasimində söz alan qaliblər müsabiqəni yüksək dəyərləndirib, onu obyektiv, şəffaf keçirdiklərinə, onlara öz fikirlərini, yaradıcı təcrübələrini bölüşmək imkanı verdiklərinə görə Bilik Fondunun və “Azərbaycan müəllimi” qəzetinin rəhbərliyinə, münsiflər heyətinə öz minnətdarlıqlarını bildiriblər.

Çıxışlardan sonra mükafatlandırma olub. I, II və III yerin qaliblərinə müvafiq dərəcəli diplomlar və hədiyyələr, həvəsləndirici yeri tutanlara tərifnamələr təqdim olunub.

Tədbirin sonunda qaliblərlə xatirə şəkli çəkdirilib.

# Qaliblər təəssüratlarını bölüşüblər



**Gülnarə Dadaşova,**
*Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksinin kimya və biologiya müəllimi*

- İlk öncə müsabiqənin təşkilatçıları olan Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fonduna və “Azərbaycan müəllimi” qəzeti redaksiyasına öz təşəkkürümü bildirirəm. Müsabiqədə birinci yeri tutduğuma görə çox qürurluyam. Belə bir müsabiqənin tam obyektiv təşkili və keçirilməsi təqdirəlayiq haldır. Müsabiqə müəllimlərin öz təcrübələrini daha geniş arenada öz həmkarları ilə paylaşması üçün bir fürsət oldu. Düşünürəm ki, müsabiqədə iştirak edib uğur qazanmış hər kəsin öz qazanc payı olacaqdır. Arzu edirəm ki, gələcəkdə müəllimləri ruhlandıran, maarifləndirən belə müsabiqələr tez-tez təşkil olunsun.



**Ülviyyə Ağayeva,**
*Yevlax şəhər S.Vurğun adına 5 nömrəli tam orta məktəbin kimya müəllimi*

- Müsabiqənin keçirilməsi biz müəllimlər üçün çox önəmli idi. Obyektiv və şəffaf şəkildə keçirilən bu müsabiqədə qələbəm respublika səviyyəsində ilk uğurumdur. Mən bu müsabiqədə II yerə layiq görülmüşəm. Belə müsabiqələrin davamlı keçirilməsini arzulayıram. Çünki bu kimi müsabiqələr müəllim səriştəliliyinin artmasına, dərslərə müasir təlim metodları prizmasından baxışımıza şərait yaradır, üzərimizə daha böyük məsuliyyət qoyur. Yüksək səviyyədə təşkil olunan müsabiqənin təşkilatçıları “Azərbaycan müəllimi” qəzeti və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fonduna təşəkkürümü bildirirəm.



**Sevinc Mirzəyeva,**
*İsmayıllı şəhər 5 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu hazırda işlədiyim məktəblə əməkdaşlıq edir. Bilik Fondunun təşkil etdiyi bir sıra müsabiqələrdə istər özüm, istər məktəbim, istərsə də şagirdlərim yaxından iştirak edib və indi də qazandığımız uğurların sevincini yaşayırıq.

Bu müsabiqəyə təqdim etdiyim yazımda müəllim-şagird münasibətlərinə və müəllimin peşəkarlıq səviyyəsinin mühüm əhəmiyyət daşıdığına toxundum. Yazımda çalışdım ki, öz təcrübəmdən də nümunələr gətirim. II yerə layiq görülməyim məni çox sevindirdi. Fondun yetişən gənc nəslin təlim-tərbiyəsi yönündə gördüyü işlərin yaxından iştirakçısı olmağımdan məmnunluq hissi keçirirəm.



**Leyla Bayramova,**
*Ağdaş şəhər 7 nömrəli tam orta məktəbin tarix müəllimi*

- Öncə müsabiqədə əməyi keçən hər bir şəxsə təşəkkürümü bildirirəm. Mən məhz müsabiqə təşkilatçılarının obyektivliyinə güvənib müsabiqəyə qoşuldum. Münsiflər heyətinin qərarı ilə birinci yerə layiq görüldüm. Müsabiqənin çox əhəmiyyətli və vacib olduğunu düşünürəm. Müsabiqəyə yazı hazırlayan müddətdə çoxlu mütaliə etdim, araşdırmalar apardım. İstifadə etdiyim müasir təlim metodlarını digər müəllimlərlə paylaşmağı məqsədəuyğun hesab etdim.



**Püstə Mehdiyeva,**
*Bərdə şəhər akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü liseyin ibtidai sinif müəllimi*

- Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə “Azərbaycan müəllimi” qəzetinin birgə keçirdiyi “Ən yaxşı yazı” müsabiqəsi bir müəllim kimi məni çox sevindirdi. Bu gün yaddaş məktəbindən təfəkkür məktəbinə keçid dövründə belə müsabiqələrin təşkili, əlbəttə, təqdirəlayiqdir. Müsabiqə haqqında elanı “Azərbaycan müəllimi” qəzetində oxuduqdan sonra ona qatılmağa qərar verdim. Həvəsləndirici yer tutmuşam. Sözümüzü, düşüncələrimizi, fikirlərimizi paylaşmağa imkan yaratdıqlarına görə təşkilatçılara dərin minnətdarlığımı bildirirəm və hər bir kəsə çox sağ olun, deyirəm.



**Sona Həmzəyeva,**
*Özəl “İdrak məktəbi”nin müəllimi*

- Müsabiqələr müəllimlərin özünüinkişafına bir stimul kimi xüsusi rol oynayır. “Azərbaycan müəllimi” qəzeti və Bilik Fondunun birgə keçirdikləri “Ən yaxşı yazı” müsabiqəsi mənə də böyük stimul verdi. Müsabiqə tam şəffaf və aydın keçirildi və mən III yerə layiq görüldüm. Təşkilatçılara öz təşəkkürümü bildirirəm. Müsabiqədə yer tutmağım məni Avstriyada keçiriləcək Beynəlxalq təhsil konfransında çıxış etməyə həvəsləndirdi.

**Yusif ƏLİYEV, Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*